*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 158−164
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 158−164
DOI: https://doi.org/10.36719/2706-6185/61/158-164

# Asiya ölkələri ilə Azərbaycan SSR arasında elmi əlaqələr

**Günel Yusifova**

***Xülasə.*** *XX əsrin 70-80-ci illəri SSRİ üçün beynəlxalq münasibətlər sistemində nüfuzunun artırılması və hələ inkişaf etməkdə olan ölkələr ilə əlaqələri daha da inkişaf etdirmək baxımından olduqca vacib dövr idi. SSRİ-nin apardığı siyasətdə elmi əməkdaşlıqların qurulması, təhsilin inkişaf etdirilməsi vacib məsələlərdən biri idi. Azərbaycan SSR Sovet hökumətinin xarici ölkələrlə mədəni əlaqələrinin inkişaf etdirilməsində mərkəz yerini tuturdu. Bu əlaqələr totalitar rejimin mövcud olduğu bir dövrdə çox ciddi nəzarət altında baş verirdi. XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-in rəhbərliyinin Heydər Əliyevə tapşırılması, onun yürütdüyü uzaqgörən dövlət siyasəti Asiya ölkələri ilə Azərbaycanın beynəlxalq əlaqələrində yeni mərhələyə qədəm qoyması ilə yekunlaşdı. Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan təhsil ocaqlarının, elmi institutlarının dünyanın bir sıra mühüm mərkəzləri ilə əlaqələri yaranıb, inkişaf edirdi. Azərbaycanda mövcud olan təhsil ocaqları və Azərbaycan Elmlər Akademiyası vasitəsilə Hindistan, İran, Əfqanıstan, Pakistandan olan tələbələrin hazırlanması, elmi konfransların təşkili və beynəlxalq təcrübə mübadiləsi həyata keçirilmişdir. Təqdim olunan məqalədə adları sadalanan Asiya ölkələri ilə Azərbaycan SSR arasında elm, təhsil istiqamətində qurulan əlaqələrin əsas istiqamətləri araşdırılaraq mühüm nəticələr əldə etmək qarşıya qoyulan əsas məqsədlərdən biridir.*

***Açar sözlər:*** *Azərbaycan SSR, elmi əlaqələr, təhsil, Asiya ölkələri, tələbə mübadiləsi, İran*

---

Bakı Dövlət Universiteti, doktorant, Bakı, Azərbaycan
E-poçt: gu_nel@yahoo.com
Daxil oldu: 6 Fevral 2026; Qəbul edildi: 19 May 2026; Onlayn dərc edildi: 28 İyun
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Scientific Cooperation Between the Azerbaijan SSR and Asian Countries

**Gunel Yusifova**

***Abstract.*** *The 1970s and 1980s represented a highly significant period for the USSR in terms of strengthening its position within the system of international relations and further developing cooperation with developing countries. One of the major priorities of Soviet policy during this period was the establishment of scientific cooperation and the advancement of education. The Azerbaijan SSR occupied a central place in the Soviet government's policy of expanding cultural and intellectual relations with foreign countries. These realtions, however, were conducted under strict state supervision within the framework of the existing totalitarian regime. The appointment of Heydar Aliyev as the leader of the Azerbaijan SSR during the 1970s and 1980s, together with his far-sighted political strategy, marked the beginning of a new stage in Azerbaijan's international relations with Asian countries. During Heydar Aliyev's leadership, Azerbaijani educational institutions and scientific research centers established and developed connections with a number of important international academic and scientific centers worldwide.*

*Through higher educational institutions and the Academy of Sciences of Azerbaijan, the Azerbaijan SSR participated in the training of students from India, Iran, Afghanistan, and Pakistan, while also organizing scientific conferences and promoting international academic exchange programs. The primary objective of the present article is to investigate the main directions of scientific and educational cooperation established between the Azerbaijan SSR and the aforementioned Asian countries, as well as to identify and analyze the significant outcomes of these relations.*

***Keywords:*** *Azerbaijan SSR, scientific cooperation, education, Asian countries, student exchange, Iran*

---

Baku State University, PhD student, Baku, Azerbaijan
E-mail: gu_nel@yahoo.com
Reseived: 6 February 2026; Accepted: 19 May 2026; Published online: 28 June
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

XX əsrin 70-80-ci illərində SSRİ inkişaf etməkdə olan ölkələrlə münasibətlərində təhsil və elm sahəsində əməkdaşlığa xüsusi diqqət yetirirdi. Sovet rəhbərliyi bu sahəni yalnız humanitar əlaqə vasitəsi kimi deyil, həm də ideoloji təsir mexanizmi kimi qiymətləndirirdi. Çünki SSRİ-nin əsas məqsədlərindən biri özünün sosialist fikirlərinin bu ölkələrdə geniş yayılması sosializmin genişlənməsi demək idi. Bu baxımdan təhsil və elmi əməkdaşlıq Sovet xarici siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdi. Ümumilikdə götürsək, Hindistan və Əfqanıstan daim SSRİ-yə yaxın olub və siyasi münasibətləri daim mövcud olmuşdu. Lakin sonradan SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi əməkdaşlığın məzmununa ciddi təsir göstərmişdi. Eləcə də 1979-cu ildəki İran İslam İnqilabı da İranla münasibətlərə təsir edərək bir müddət durğunluq dövrü olmuşdur. Pakistan isə daha çox Qərb dövlətlərinə yaxın siyasət yürütməsinə baxmayaraq, SSRİ onunla əlaqələri tam zəiflətməməyə çalışır, xüsusilə mədəni və elmi əməkdaşlıqlar sahələrində münasibətləri davam etdirridi. Elmi əlaqələr daim ölkələrin mənəvi cəhətdən zənginləşməsində, eləcə də onlar arasında qarşılıqlı əlaqələrin qurulmasında vacib yer tutan mədəni əlaqə formasıdır. Xüsusilə ikitərəfli elmi əməkdaşlıq həm təcrübə mübadiləsinə, həm də müxtəlif ölkələrin intellektual potensialının güclənməsinə şərait yaradırdı.

## Metodlar

Tədqiqat zamanı tarixi, xronoloji, sistemli təhlil metodlarından istifadə edilərək, 1970-1980-ci illərdə Azərbaycanın Asiya ölkələri arasında yaranmış elmi əlaqələri müqayisəli formada araşdırılmışdı. Bu münasibətlərin inkişaf tempi arxiv materialları, dövrü mətbuat, elmi əsərlər və digər sənədlər vasitəsilə öyrənilmişdi. Ümumi olaraq, məqalədə xarici tələbələrin statistik göstəriciləri müqayisə edilmişdi. Elmi əlaqələr sistemləşdirilmiş, elmi səfərlər, konfranslar və layihələr üzrə faktların ümumiləşdirilməsi metodlarından istifadə edilmişdir.

## Nəticələr

Mövzu üzərində aparılan araşdırmalara əsasən qeyd etmək lazımdır ki, XX əsrin 70-80-ci illərində Azərbaycan SSR beynəlxalaq münasibətlər sistemində mühüm mövqeyə malik idi. Mədəni əlaqələrin bir forması olan elmi əlaqələrin xarici ölkələrlə inkişaf etdirilməsi məhz bu dövrə təsadüf edir. Bunu göstərən faktlardan biri bu illərdə Azərbaycanda təhsil alan xarici tələbələrin sayı ildən-ilə artırdı. 1970-ci illərlə müqayisədə artıq 80-ci illərdə Azərbaycanın ali məltəblərində təhsil alan xarici tələbələrin sayı 3000 nəfər idi. Daha bir fakt bu ölkələrlə elmi əlaqələr daha çox neft, qaz sənayesi,

geologiya, geofizika, mikrobiologiya, tibb, astronomiya sahələrini əhatə etmişdir. Elmi əməkdaşlıqlar çərçivəsində Xəzər dənizinin ekoloji problemləri, neft sənayesi ilə bağlı son texnologiyalar, və digər sahələr üzrə birgə fəaliyyət həyata keçirilmişdir. Tibb sahəsində isə Azərbaycan SSR-in mütəxəssisləri Hindistan, İran, Əfqanıstan, Pakistanda keçirilən beynəlxalq konfranslarda iştirak edərək bir sıra sahələr-oftalmologiya, kardiologiya, hemofiliya üzrə öz elmi nailiyyətlərini həmkarları ilə bölüşmüşdülər.

**Müzakirə**

Azərbaycan elm xadimləri Sovet elmini dünyada təmsil etdiyi üçün onlar SSRİ vətəndaşı olaraq çox mühüm beynəlxalq təşkilatların nümayəndəsi olurdular. Azərbaycan SSR Elmlər Akademiyası və onun müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən institutları getdikcə dünyanın nüfuzlu elmi mərkəzləri ilə səmərəli münasibətlərini qururdu (Manafova, Əfəndiyeva, 2008, s. 222). Bu ölkələrdə milli savadsızlıq səviyyəsi olduqca yüksək idi. Bu da onların asılı olduğu ölkələrin buraxdığı miras kimi qəbul edilirdi. Qeyd etmək lazımdır ki, bu ölkələrdəki savadsızlıq 80%-in üstündə olmuşdur və Azərbaycan bu yeni müstəqillik qazanan ölkələrə milli kadrların hazırlanmasında, yerli mütəxəssislərin olmasında böyük kömək olmuşdur. Azərbaycan SSR xaricdən təhsil almağa gələn tələbələrə böyük şərait quraraq, onları yataqxana, təqaüdlə təmin edirdi. Bunu da ildən-ilə ölkəmizə gələn tələbə axının çoxaldığını statistik rəqəmlərdə görə bilərik. Musa Qasımlının arxiv sənədləri üzərində apardığı tədqiqata istinad edərək qeyd etmək istərdim ki, 1974-cü ildə Azərbaycanın ali məktəblərində 55 ölkədən 1621 nəfər təhsil alırdısa, 1975-ci ildə 64 ölkədən 1647 nəfər, 1976-cı ildə 61 ölkədən 2077 nəfər, 1977-ci ildə 1746 tələbə və aspirant, 1978-ci ildə isə bu göstərici 70 ölkədən 2417 nəfərə çatmışdı. 1981-ci ildə isə respublikada təhsil alan xarici tələbələrin sayı 72 ölkədən 3000 nəfərə yaxın idi (Qasımlı, 2006, s. 130; Gasymly, 2005). Əlbəttə bu tələbələrin içində say olaraq inkişaf etməkdə olan ölkələrin, eləcə də Hindistan, İran, Əfqanıstan və Pakistan vətəndaşları üstünlük təşkil edirdi. İldən-ilə xarici tələbələrin sayının çoxalması ölkəmizin təhsil sisteminin yüksək səviyyədə təşkili və tələbələrə geniş şəraitin yardılması Azərbaycan SSR-in beynəlxalq sistemdə rolunu artırırdı. Sovet hökumətinin beynəlxalq münasibətlərdə əlaqələrinin gücləndirilməsində ölkəmizin alimləri, elmi işçiləri əsas rol oynamışdı. Digər tərəfdən İran, Hindistan, Əfqanıstan, Pakistan kimi ölkələr elm və təhsil sahələrində çox geridə qaldıqları üçün Sovet elminin, təhsilinin, mədəniyyətinin, sovet alimlərinin təcrübələrindən öz ölkələrində istifadə edilməsində maraqlı idilər. 1970-1980-ci illərdə respublikada fəaliyyət göstərən 17 ali məktəbdə 100 mindən artıq tələbənin təhsil alması respublikanın regionun əsas təhsil mərkəzlərindən birinə çevrildiyini göstərirdi (Sultanova, 2020, s.310).

Bu dövrdə Azərbaycan SSR-in elmin müxtəlif sahələrindəki uğurları, yüksək ixtisaslı kadrların olması onun xarici ölkələr içərisində nüfuzunu qaldırmışdı. SSRİ-nin müttəfiq respublikası kimi tanınan Azərbaycan SSR alimləri, elmi işçiləri inkişaf etməkdə olan ölkələrdə, xüsusilə Hindistan, İran, Əfqanıstan, Pakistanda BMT-nin xüsusi müşaviri kimi iştirak edirdilər. Bu ölkələrdə Sovet hükumətinin maddi yardımı ilə tikilən obyektlərdə fəaliyyət göstərirdilər. Belə ki, beynəlxalq konfranslarda, qurultaylarda məruzələrlə çıxış etmək, sənayenin və digər sahələrin inkişaf etdirilməsi, lazım olan dəstək üçün ölkəmizin alimləri ezam olurdular və bütün elmi problemləri həll etmək üçün birgə fəaliyyət göstərirdilər. Azərbaycan elmi-texniki fikrinin ən vacib istiqamətləri bu əlaqələrdə iştirak etmiş və həmin əlaqələr bütün mümkün olan formalarda özünü göstərə bilmişdir (Sayadov, 2006, s. 134).

XX əsrin 70-80-ci illərində Azərbaycan SSR və İran arasında elm və təhsil sahəsində əlaqələr müəyyən dinamika ilə inkişaf etmişdir. Bu dövrdə qarşılıqlı səfərlər, elmi müzakirələr və təcrübə mübadilələri iki tərəf arasında əməkdaşlığın əsas istiqamətlərindən birini təşkil edirdi. Azərbaycan alimlərinin İrana səfərləri zamanı əsas diqqət Xəzər dənizinin eco sisteminin qorunmasına, xüsusilə balıqçılığın inkişaf etdirilməsinə, neft sənayesində tətbiq olunan texnologiyalara, eləcə də

məhsuldarlığa ziyan vuran müxtəlif qrup ziyanvericilərə qarşı birgə mübarizə aparmaq üçün birlikdə elmi təcrübədən faydalanmışdılar. 1970-ci ildə Azərbaycan SSR-də olan İran arxeoloqları, İranın milli muzeyinin direktoru Fövzi Rəşid Azərbaycan həmkarları ilə görüşərək onların elmi araşdırmaları ilə maraqlanmışdı (Qəniyev, 2017). Qonaqlar Azərbaycanın tarix və ədəbiyyat muzeylərinə səfər etmişdilər. İranlı alim Yusif Sübuti də Azərbaycana səfər etmişdir. Səfər zamanı Sübuti azərbaycanlı alimlərin maqnit ulduzların tədqiqatı üzrə apardığı araşdırmanı yüksək qiymətləndirmişdi. 1972-ci il 6-7 aprel tarixlərində İranın təhsil və elm naziri Hüseyn Kazımzadə xanımı ilə Azərbaycan SSR-ə səfər etdi (Zeynalov, 2024, s. 174). Bu səfər zamanı hər iki ölkənin təhsil naziri görüşlər keçirmişdilər. Azərbaycan SSR-in təhsil naziri Q. Əliyev öz həmkarını Bakı şəhəri ilə yaxından tanış etmiş, Opera və Balet Teatrında "Yeddi Gözəl" baletini izləmişdilər. Belə səfərləri azərbaycanlı elm xadimləri də edərək, 1973-cü ildə İranın bir sıra şəhərlərinə səfər etmişdilər. Həsən Abdullayevin rəhbərliyi ilə Azərbaycan SSR Elmlər Akademiyasının nümayəndələri İranın bir sıra universitetlərində (Məşhəd, Tehran, Təbriz) olmuşdular. Bu səfər zamanı H.Abdullayev İranın təhsil naziri olan Hüseyn Kazımzadə ilə görüşərək mütəxəssislərin hazırlanmasında nə kimi kömək lazın olarsa azərbaycanlı mütəxəssisləri yardım edəcəyini bildirmişdi.

Mikrobiologiya sahəsində qurulan əməkdaşlıqlar sonradan bu sahə üzrə Təbriz universitetində şöbə müdiri olan Məhəmməd Naibi Azərbaycana səfər etmişdi. Elmlər Akademiyasında olan Naibi Azərbaycanın mikrobiologiya elmi sahəsində əldə etdiyi araşdırmalarla yaxından tanış olmuşdu. Azərbaycanlı alimlərin mikrobiologiya sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirmişdi. Azərbaycan SSR və İran arasında 1978-ci ildə saziş imzalandı. Bu müqaviləyə əsasən İran universitetlərinin işçi qrupunun Əhməd Kiyasatpurun rəhbərliyi ilə ölkəmizə səfərləri olmuş, onlar Şamaxı Astrofizika Rəsədxanasına baş çəkmişdilər. Azərbaycanda aparılan tədqiqat işləri ilə yaxından tanış olmuşdular. 1975-ci ilin iyununda Bakıda SSRİ və İran gənclərinin dostluq həftəsi keçirildi və 1978-ci ilin mayında isə Bakıda Sovet-İran elmi-texniki əməkdaşlıq konfransı təşkil olundu (Manafova, 2008, s. 9; Manafova və Əfəndiyeva, 2008). Lakin İranda 1979-cu ildə baş verən inqilab bütün sahələrdə əlaqələrin zəiflədiyi kimi, elmi əlaqələrdə də zəiflədi. 80-ci illərdə isə vəziyyət yenə də ürəkaçan deyildi, amma zəif də olsa elmi və mədəni əlaqələr davam etdirilirdi.

Bu dövrdə Azərbaycan alimlərinin elmi nailiyyətlərinin dünyanın hər bir yerində tanınması olduqca qürurverici hal idi. Hindistan ilə qurulan beynəlxalq elmi əlaqələrdə əlbəttə Sovet hökumətinin vasitəsi ilə baş vermişdir. Çünki Azərbaycan SSR SSRİ-nin tərkibinə qatıldıqdan sonra məhz onun tərkibində elmi və elmi texniki yenilikləri əldə edib, dünyanın bir sıra ölkələri ilə elmi əlaqələrin qurulub, inkişaf etməsi çox effektli olmuşdur.

Sovet hökuməti ilə Hindistan arasında mövcud olan əlaqələr içərisində elmi əlaqələr də vacib yer tuturdu. SSRİ Hindistanın elmi texniki vasitələr baxımından çatışmayan sifarişlərinin hazırlanmasında böyük köməyi olmuşdur. Kömək etməklə yanaşı, onun milli kadrlarının inkişaf etdirməsinə və iki ölkənin bir-biri ilə elmin müxtəlif sahələri üzrə əməkdaşlıq etməsi də bu əlaqələrin əsas forması idi. 1971-ci ildə Sovet İttifaqı ilə Hindistan arasında elmi-texniki əməkdaşlıq haqqında yeni müqavilə imzalanmışdı (Budaqova, 2003). Müqavilənin əsas bəndlərindən biri hər iki ölkənin elmi və texniki informasiya ilə bağlı bütün çətinliklərin həll olunmasında birgə əməkdaşlıq edilməsi nəzərdə tutulmuşdur. Birgə əməkdaşlığın nəticəsində Hindistanda yeni elmi mərkəzlər açıldı ki, burada tədqiqat işləri aparıla bilsin. Bombey, Heydərabad, Dehli və başqa şəhərlərdə yerləşən universitetlərdə elmi mərkəzlər açıldı. Bu mərkəzlər sənayenin bir sıra sahələri ilə neft, energetika, metallurgiya ilə bağlı olan çətinlikləri və problemləri həll edəcəkdi. Əlbəttə bu mərkəzləri, büroları işlətmək üçün yüksək ixtisaslı kadrlara da ehtiyac var idi. Bu dövrdə Azərbaycan elminin əsas tədqiqat mövzularından biri neft və qazın çıxarılması və emalı ilə bağlı idi. Ölkəmizin elm xadimləri, alimlərinin bu mövzularda yazdıqları əsərlər SSRİ-də neft və qazın çıxarılmasının özülünü qoymuşdur. Ona görə də Azərbaycan alimlərinin dəstəyi ilə Sovet hökuməti Hindistana milli

kadrların yetişdirilməsində çox kömək olmuşdu. Dostluq, elmi-texniki və mədəni əməkdaşlıq haqqında imzalanan müqaviləyə əsasən Hindistanda neft sənayesinin inkişafı üçün yeni mərhələ açıldı (Hacıyev, 1985). Azərbaycan SSR-in bir qrup yüksək ixtisaslı neftçiləri, xüsusən Tofiq Səfərəliyev, Ağası Hacıyev bu sahədəki xidmətləri çox olmuşdur. Onlar Hindistanda həm quruda, həm suda yataqların tapılmasında fəal iştirak etmişdilər.

Azərbaycan neftçilərinin Hindistana etdiyi ezamiyyətlər kimi Hindistanın neft mütəxəssisi Mehrotra neftçilərimizin etdiyi köməkliklərə görə təşəkkürünü bildirmişdi. Hər iki ölkənin bir-birinə elmi-texniki sahədə etdiyi köməkliklər sonrakı illərdə də davam etmişdir. Elmi əlaqələrin möhkəmlənməsində səfərlərin olması, elmi mübadilələrin aparılması və Azərbaycan SSR Elmlər Akademiyasının rolunu qeyd etmək lazımdır. Qarşılıqlı səfərlərə misal olaraq 1971-ci ildə hind alimi, geofizika elmi üzrə professor olan Mohanlal Qupta Azərbaycan Elmlər Akademiyasını ziyarət etmiş, burada həmkarları ilə geofizika elminin müxtəlif sahələrini, məsələn zəlzələnin baş verməsinin əvvəlcədən proqnozlaşdırılmasını, elektromaqnit dalğaları, yer maqnizitizmi haqqında diskussiyalar etmişdilər. Azərbaycandan müxtəlif illərdə alimlər Hindistana səfər edərək oradakı konqreslərdə iştirak etmişdilər. Riyaziyyat və Mexanika İnstitutundan Maqsudov, Fiziologiya İnstitutundan akademik H.Həsənov bu konqreslərdə öz elmi biliklərini bölüşmüşdülər. Azərbaycan və Hindistan arasında elmi əlaqələrin yeni mərhələsi kosmik tədqiqatlar bölməsində olmuşdur. 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının prezidenti H.Abdullayev və Hindistan Kosmik Tədqiqatlar Təşkilatının rəhbəri Mexonun iştirakı ilə razılıq müqaviləsi imzalanmışdı (Budaqova, 2003). 70-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının fəaliyyətindəki uğurlar Hindistanda da bilinirdi. Hindistandan fəxri qonaqlar Elmlər Akademiyasını ziyarət edərək müxtəlif elmi tədqiqat problemlərini, institutlarda aparılan işlər haqqında geniş müzakirələr aparırdılar. 1975-ci ildən sonra Hindistan daxilində baş verən siyasi proseslər, çəkişmələr bu əlaqələrə də öz mənfi təsirini göstərmişdi. 80-ci illərdən başlayaraq Hindistanla elmi əlaqələrin yeni mərhələsi başladı. Bu illərdə genetika sahəsi üzrə 2, yer haqqında elmlər üzrə 3 simpozium baş tutmuşdu. Bu simpoziumların təşkilində Azərbaycan Elmlər Akademiyası, xüsusilə Coğrafiya İnsititutunun direktoru H. Əliyevin əməyi böyük olmuşdur. 1980-1985-ci illərdə elmi əlaqələri daha da genişləndirmək məqsədilə "elmi əməkdaşlıq proqramı" hazırlanıb, qəbul edildi. Bu müqaviləni Azərbaycan SSR tərəfindən Elmlər Akademiyasının prezidenti H. Abdullayev, Hindistan tərəfdən isə Hindistan Milli Elmlər Akademiyasının rəhbəri V.Ramalingasvari imzaladı.

Azərbaycan SSR Əfqanıstan və Pakistan ilə elmi əlaqələrin qurulmasında da fəal iştirak etmişdir. Azərbaycan alimlərinin bu ölkələrə səfərləri olmuş və burada həm elmi işlərdəki problemləri həll etməklə yanaşı, həm də Sovet hökumətinin yardımı ilə tikilən elmi müəssisələrdə məsləhətçi kimi fəaliyyət göstərirdilər. Ölkəmizdən gedən alimlər Əfqanıstan, Pakistanda neftin çıxarılmasında iştirak ediblər. Pakistanda neft və qaz yataqlarının müəyyən edilməsində, eləcə də geoloji axtarış proseslərində Azərbaycandan olan elm xadimləri Ə.Tağıyev, M.Ağabəyov, H.Əhmədov məsləhətçi kimi iştirak edərək, öz tövsiyyələrini həmkarlarına bildirmişdilər. Azərbaycan bu dövrdə SSRİ-nin Afrika ölkələri, ərəb dövlətləri, Kuba, Əfqanıstan və digərləri üçün kadr (ən çoxu da neft sənayesi üzrə) hazırlayan başlıca mərkəzlərindən biri olmuşdur (İsmayıl, 2008, s. 480).

XX əsrin 70-80-ci illərində İran-SSRİ qaz kəmərinin çəkilişində Azərbaycan SSR EA-da fəaliyyət göstərən F.Şərifov bir sıra işlərdə korroziya, izolyasiya işlərinə rəhbərlik etmişdi. Ümumiyyətlə, bu dövrün alimlərinin və dövlətlərinin əsas diqqət etdiyi məsələ neft, neftin mənşəyi ilə bağlı məsələlər idi. Azərbaycan SSR-nin akademiki M.Əliyev Hindistanda keçirilən Ümumhind 45-ci konqresində iştirak edərək, elmi çıxışları ilə seçilmişdi. Eləcə də İranda neftin mənşəyi ilə bağlı beynəlxalq konfransda Azərbaycan SSR-ni akademik R.İsmayılov təmsil etmişdi. O, öz çıxışında neft kimyasına aid problemlər haqqında geniş məruzə vermişdir. Onun çıxışı konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmışdı. Azərbaycan SSR-dən Hindistan, Pakistan və 1982-ci ildə Əfqanıstana göndərilən Geofiziki kəşf üsulları institutunun nümayəndələri bir müddət bu ölkələrdə fəaliyyət

göstərmişdilər. Bitkilərin təsnifləşdirilməsi və qruplaşdırılmasına dair öz elmi fikirlərini bölüşmək üçün professor İ.M.Axundzadə İran və Əfqanıstana səfər etmişdir. 1989-cu il avqustun 1-də Sovet-İran sazişinə uyğun olaraq Azərbaycanın 84 nəfərdən ibarət neftçilər qrupu İrana səfər etmişdi. “Xəzər-2” üzən qazma qurğusu vasitəsilə 6 min metr dərinlikdə neft kəşfiyyatı aparılması nəzərdə tutulurdu (Məmmədzadə, 2004, s.44).

Bu sahələrlə yanaşı, tibb sahəsində xarici ölkələrdə, xüsusilə, Asiya, Afrika, Latın Amerikası ölkələrində çalışan həkimlərimiz barədə də gözəl xəbərlər gəlirdi. Bu ölkələrdə keçici xəstləliklərə qarşı uğurlu müalicə üsulu seçən həkimlərimiz xəstəliklərin daha da geniş yayılmasının qarşısını almışdılar. Tibbin müxtəlif sahələri üzrə, məsələn oftalmologiya (Asiya və Afrika oftalmoloqlarının III konqresi), kardiologiya (Hindistanda V Ümumdünya konqresi), hemofiliya (Tehranda III Ümumdünya konqresi) ixtisaslaşmış professor, həkim heyəti konqreslərdə çıxış edərək öz elmi biliklərini paylaşmışdılar. İcitami elmlər sahəsinə daxil olan Azərbaycan alimləri bu ölkəlrədə baş tutan beynəlxalq konfranslarda iştirak etmişdilər.

Elmi əlaqələrin inkişaf etdirilməsində elmi işçilərin səfərləri çox vacib fakt idi. Elmlər Akademiyasının 100-dən çox elmi işçisi bu ölkələrdə olmuş, eləcə də bu ölkələrdən olan elm nümayəndələri Azərbaycana səfər etmişdilər. 70-80-ci illərdə ali məktəb alimlərinin bu ölkələrə elmi məqsədlər adı ilə dəfələrlə səfərləri olmuşdur. Həmçinin Elmlər Akademiyasının elmi kitabxanasının dəstəyi ilə bu ölkələrə 8000 dən çox elmi əsərlər göndərilmiş, bu Asiya ölkələrindən isə bizim kitabxanalara 5900 ədəbiyyat gəlmişdi. Azərbaycan SSR-in elmi yenilikləri bu ölkələrdə təhsilin inkişaf etməsinə, bir çox sahələrin sənaye və kənd təsərrüfatının inkişafına təsir etmişdir. Nəticədə Hindistanda neft sənayesi, Əfqanıstanda xalq təsərrüfatının əsas sahələrinin, eləcə də Pakistanda kənd təsərrüfatının bütün sahələrinin yaranıb, inkişaf etməsində Azərbaycan elminin rolunu yüksək qiymətləndirmək lazımdır.

## Nəticə

Azərbaycan SSR-in elmi əlaqələrinin beynəlxalq münasibətlər sistemində XX əsrin 70-80-ci illərində rolunun daha da artmasında Hindistan, Pakistan, İran, Əfqanıstan ilə olan əməkdaşlıq tellərinin də çox böyük rolu olmuşdur. Sovet hökuməti üçün Azərbaycan Cənubi və Qərbi Asiya ölkələri ilə əlaqələrin qurulmasında vacib elmi və mədəni mərkəzlərdən biri idi. Azərbaycan universitetləri və institutları bu ölkələrdən olan tələbələrin təhsil almasında fəal iştirak edərək tələbələrin müxtəlif sahələrədə əsasən də kənd təsərrüfatı, tibb, neft sənayesi, eləcə də humanitar sahələrdə təhsil almasında vacib rol oynamışdır. Təhsil və elmi əlaqələr SSRİ hökümətinin beynəlxalq dostluq və ideoloji baxımdan əsas siyasətinin bir hissəsi olmaqla yanaşı, Azərbaycan elminin dünya səviyyəsində tanınmasında müstəsna rol oynamışdır. Hindistan, İran, Əfqanıstan və Pakistan ilə qurulan əlaqələr humanitar, mədəni istiqamətdə inkişaf etmişdi. Bu ölkələrdən olan tələbələrin sovet universitetlərində təhsil alması, alim və yüksək ixtisaslı mütəxəssislərin qarşılıqlı olaraq səfərlərin təşkil edilməsi, beynəlxalaq konfransların, müxtəlif elmi tədbirlərin keçirilməsi bu istiqamətdə atılmış mühüm addımlar sayılır. Son olaraq onu qeyd etmək lazımdır ki, XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-nin beynəlxalq elm və təhsil əlaqələrində iştirak etməsi Azərbaycan elminin inkişafına  və xarici ölkələrlə mədəni yaxınlaşmasına və beynəlxalq təcrübənin qazanılmasına töhfə vermişdi. 1970-1980-ci illərdə qurulan əlaqələr müasir dövrdə Azərbaycan Respublikasının müstəqillik dövründə beynəlxalq təhsil və elmi əməkdaşlıqlarının inkişafında tarixi rol oynamışdır.

**Ədəbiyyat**

1. Budaqova, S. (2003). *Azərbaycan–Hindistan: İqtisadi, elmi-texniki və mədəni əlaqələri tarixindən (XX əsrin 50–80-ci illəri)*. Təfəkkür.
2. Gasymly, M. Dzh. (2005). *Azerbaydzhan v mezhdunarodnykh kul'turnykh svyazyakh (1946–1990 gg.)*. Artanuchi.
3. Hacıyev, H. (1985). *Dostluq və əməkdaşlıq telləri*. Azərnəşr.
4. Manafova, M. (2008). *Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri*. Bakı Universiteti Nəşriyyatı.
5. Manafova, M. C., & Əfəndiyeva, N. T. (2008). *Beynəlxalq mədəni əlaqələr*. Sabah.
6. Musa, İ. M. (2008). *Dövlətlərarası münasibətlər və Azərbaycan (aprel 1920–oktyabr 1991-ci illər)*. Bakı Universiteti Nəşriyyatı.
7. Məmmədzadə, G. (2004). *İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin inkişafı*. Bakı Universiteti Nəşriyyatı.
8. Qasımlı, M. C. (2006). *Heydər Əliyev – istiqlala gedən yol (1969–1987-ci illər)*. Bakı Universiteti Nəşriyyatı.
9. Qəniyev, H. Q. (2017). *SSRİ–İran iqtisadi və mədəni əlaqələrində Azərbaycanın iştirakı (1960–1990-cı illər)*. Mütərcim.
10. Sayadov, S. (2006). *XX əsr: Azərbaycan və dünya*. Elm.
11. Sultanova, X. R. (2020). *Azərbaycan mədəniyyəti və incəsənəti*. Mütərcim.
12. Zeynalov, İ. X. (2024). *Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: Dahi şəxsiyyətin şərəfli ömür yolu*. Füyuzat.